**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in təsdiq edilməsi haqqında" 2012-ci il 17 oktyabr tarixli 234 nömrəli, "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 3 aprel tarixli 94 nömrəli, "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" 2018-ci il 14 mart tarixli 94 nömrəli, "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 520 nömrəli, "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə" 2020-ci il 29 may tarixli 189 nömrəli və "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" 2020-ci il 11 iyun tarixli 199 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 302-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1992-ci il 31 iyul tarixli 94 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın təsdiq edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 371 nömrəli, "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2013-cü il 11 iyun tarixli 908 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1352 nömrəli Fərmanının 9-cu hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 10, maddə 1015; 2014, 8, maddə 1021; 2019, 3, maddə 514) ilə təsdiq edilmiş "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in 4.5-ci bəndinin üçüncü cümləsində və 6.10-cu bəndində "sanitariya-epidemioloji nəzarət" sözləri "sanitariya nəzarəti" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 4, maddə 440, 11, maddə 1513; 2015, 5, maddə 665; 2016, 3, maddə 615, 5, maddə 955, 9, maddə 1563, 10, maddə 1733; 2017, 1, maddə 123, 8, maddələr 1616, 1623, 9, maddə 1758; 2018, 2, maddə 343, 3, maddə 622, 4, maddə 809, 5, maddə 1126, 8, maddə 1817, 10, maddə 2162, 11, maddə 2439; 2019, 3, maddə 522, 12, maddə 2101; 2020, 2, maddə 206, 10, maddə 1270, 11, maddə 1411; 2021, 2, maddə 193) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın 3.17-ci bəndində "sanitar-epidemioloji orqanlar" sözləri "dövlət sanitariya nəzarəti orqanları" sözləri ilə əvəz edilsin.

~~3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 mart tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 3, maddə 604, 5, maddə 1115; 2019, 2, maddə 365, 7, maddə 1347, 8, maddə 1455, 11, maddə 1851; 2020, 5, maddə 657; 2021, 3, maddə 279, 4, maddə 418, 5, maddə 515; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 sentyabr tarixli 264 nömrəli Qərarı) ilə təsdiq edilmiş 19 nömrəli əlavə - "İcra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıq işçilərinin aylıq vəzifə maaşlarının Cədvəli"nin qeydindən ", Bakı və Sumqayıt şəhərlərinin səhiyyə şöbələrində" sözləri çıxarılsın.~~[1]

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, 12, maddə 2100) ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.4.8.7-ci yarımbəndin ikinci abzasında "sanitariya" sözü "dövlət sanitariya nəzarəti" sözləri ilə, "sanitar orqanların" sözləri "dövlət sanitariya nəzarəti orqanlarının" sözləri ilə əvəz edilsin;

4.2. 2.4.9.30-cu yarımbənd üzrə:

4.2.1. üçüncü abzasda "Sanitar orqanların" sözləri "Dövlət sanitariya nəzarəti orqanlarının" sözləri ilə əvəz edilsin;

4.2.2. beşinci abzasda "sanitar-epidemioloji xidmət təşkilatları" sözləri "dövlət sanitariya-epidemioloji xidmət müəssisələri" sözləri ilə əvəz edilsin.

~~5. "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 may tarixli 189 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, 5, maddə 660; 2021, 5, maddə 530) 1.6-cı bəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.~~[2]

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, 6, maddə 789; 2021, 5, maddə 504, 6 maddələr 662, 673, 7, maddə 884) ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın 8.2-ci bəndində "səlahiyyətli sanitar orqanların" sözləri "dövlət sanitariya nəzarəti orqanlarının" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 oktyabr 2021-ci il
330

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 14 yanvar 2022-ci il tarixli **10** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 yanvar 2022-ci il, 13** )
2. 22 aprel 2022-ci il tarixli **171** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 aprel 2022-ci il, 84 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 4, maddə 417**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 14 yanvar 2022-ci il tarixli **10** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 yanvar 2022-ci il, 13** ) ilə 3-cü bənd ləğv edilmişdir.

[2] 22 aprel 2022-ci il tarixli **171** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 aprel 2022-ci il, 84 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 4, maddə 417**) ilə 5-ci bənd ləğv edilmişdir.